*Nazlı QULİYEVA*

# ÇAR RUSİYASI DÖVRÜNDƏ DƏRBƏNDDƏ ƏHALİNİN ETNİK TƏRKİBİ

**Açar sözlər:** Dərbənd, əhali, siyahıyaalma, azərbaycanlılar
**Keywords:** Дербенд, население, перепись, азербайджанцы
**Ключевые слова:** Derbent, population,census, Azerbaijanians

Dünyanın ən qədim şəhərlərindən biri olan Dərbənd tarix boyu Şimalı Cənubla, Avropanı Asiya ilə əlaqələndirən mühüm hərbi-strateji məntəqə rolunu oynamışdır. Məhz buna görə də, şəhər bir çox geosiyasi proseslərdən yan keçə bilməmişdir. Xüsusən, XVIII əsrdən başlayaraq Dərbəndin əhəmiyyəti daha da artır, belə ki, regionda getdikcə mövqeləri güclənən Rusiya əvvəllər yalnız ticarət əlaqələri üzərində qurulan Səfəvi-Rusiya münasibətlərinin istiqamətini siyasi məqsədlərə tərəf yönləndirdi.

XVIII əsrin əvvəllərinə qədər Rusiya Azərbaycana qarşı yalnız iqtisadi yollarla təsir etməyə çalışırdı, lakin XVIII əsrin əvvəllərində iqtisadi və hərbi cəhətdən güclənən Rusiya Qafqazı, o cümlədən Azərbaycanı işğal etmək üçün planlar qururdu. Şimal müharibəsinin zəfərlə başa çatması bu prosesi daha da sürətləndirdi. I Pyotrun məqsədi müxtəlif səbəblərlə ört-basdır edilsə də hər şey göz önündə idi. Bəhs edilən dövrdə I Pyotra böyük ümidləri olan ermənilər xüsusi fəallıq göstərir, bölgənin ictimai-siyasi və iqtisadi vəziyyəti haqqında lazımi məlumatlar toplayırdılar.

Hərbi əməliyyatlara başlamaq üçün əlverişli şəraitin yetişdiyinə qərar verən I Pyotr 1722-ci ilin iyununda 100 minlik ordu ilə Həştərxandan Azərbaycana yürüşə başlayır və Dərbəndi ələ keçirir. Lakin Dərbənddə çox qala bilmir və qarnizon yerləşdirib Rusiyaya qayıtmalı olur (Osmanlı imperiyasının Rusiya imperiyasının işğalçılıq siyasətinə etiraz etməsi, Hacı Davudun ona qarşı hərbi hazırlığa başlaması və s. onu geri çəkilməyə vadar etdi ). 1722-1723-cü illər yürüşü zamanı Dərbənddən başqa Bakı və Rəşt də işğal olunur. I Pyotrun Dərbənd və Bakı ilə bağlı xüsusi planları var idi. O, özünə sosial dayaq yaratmaq məqsədi ilə bu bölgələrdə erməni və gürcü ailələri yerləşdirməyi nəzərdə tutmuşdu. Bunun əvəzində isə yerli əhali sürgün olunmalı idi. Amma rus qoşunlarının ərzaq çatışmazlığı ilə üzləşəcəyindən narahat olan Pyotr sürgün planını təxirə salır [7, 150]. Onun 10 noyabr 1724-cü il tarixli fərmanına əsasən bir çox erməni ailələri Bakı və Dərbəndə köçürülmüşdü. Dərbənd 1735-ci ilə kimi Rusiya imperiyasının tərkibində qalmış və yalnız Gəncə müqaviləsindən sonra Səfəvi dövlətinə qaytarılmışdı.





Nadir şah Əfşarın həyata keçirdiyi inzibati islahat nəticəsində Dərbənd inzbati baxımdan Azərbaycan vilayətinin (Təbriz, Qarabağ, Şirvan və Çuxursəd bəylərbəylikləri ləğv edilərək Azərbaycan adlı yeni inzibati vahiddə birləşdirilmişdir.) tərkibində olmuşdur [1, 495]. Nadir şahın ölümündən sonra Azərbaycan tarixində xanlıqlar dövrü başlayır. Dərbənd xanlığı 1759-cu ildə Qubalı Fətəli xan tərəfindən ələ keçirilmiş və Rusiya işğalına qədər Quba xanlığının tabeliyində qalmışdır [1, 412].

1775 və 1796-1797-ci illərdə Rusiya imperiyasının Dərbəndə sahib olmaq cəhdləri iflasa uğrayır. Bu uğursuzluqlardan sonra XIX əsrin əvvəllərində Rusiya yenidən Cənubi Qafqazda nüfuzunu bərpa etmək üçün hərbi əməliyyatlara başlayır, lakin 1806-cı ilin fevralında general Sisianovun ekspedisiyası Bakı qala divarları qarşısında məğlubiyyətə düçar olur və Sarı adasına çəkilməli olur. Bu hərbi uğursuzluqdan sonra Azərbaycan torpaqlarının ruslar tərəfindən növbəti işğal kompaniyası Dərbənddən başlayır. 1806-cı ildə şəhər Quba xanlığından Rusiya imperiyasının əlinə keçir və tezliklə, bütün Quba xanlığı işğal olunur. Ləğv olunmuş xanlığın yerində eyni adlı əyalət yaradılır. 1840-cı il komendant idarə üsulu ləğv edildikdən sonra digər Şimali Azərbaycan torpaqları kimi Dərbənd də Xəzər vilayətinə daxil edilir.

Dərbəndin qəti şəkildə Rusiya imperiyasına daxil olmasından sonrakı dövrə aid rəsmi statistik rus sənədləri Dərbəndin Azərbaycan şəhəri olduğunu sübut edir. XVIII əsrin sonu-XIX əsrin əvvəllərinə aid mənbələrdə Dərbənd şəhəri ərazisində yaşayan əsas etnoslar kimi Azərbaycan türkləri və yəhudi adları çəkilir.

Azərbaycan türkləri Dərbəndin aborigen əhalisidir. Tarixin bütün mərhələlərində Azərbaycan türkləri burada aparıcı rol oynayıb hətta Sasanilərin dövründə farslar, Xilafətin dövründə ərəblər köçürülsə də onlar assimilyasiyaya uğrayaraq türkləşmişlər. Dərbənddə olan bir çox toponimlər məsələn, bir çox məhəllə adları (Urta, Bayat qapı, Bazar və ya Xan küçə, Carçı, Genküçə və s.) şəhərin bir türk yurdu olduğunu sübut edir. Hətta XIX əsrin əvvəllərinə qədər bütün şimal (Carçı qapı, Orta qapı və Dubar qapı) və cənub (Qala qapı, Bayat qapı, Orta qapı Engi qapı və Dubar qapı) qapıları Azərbaycan adları daşıyırdılar. Yerli əhalinin əsas kütləsi Azərbaycan dilində danışır və İslamın şiə təriqətinə inanır. Onları çox vaxt səhv olaraq iranlı adlandırırlar, lakin bu iki xalq üçün bir ortaq cəhət var o da şiəlikdir [6, 299].

Dağ yəhudilərin bir hissəsi II Yezdəgirdin dövründə digər qəbilələri ilə birlikdə Azərbaycanın şimal-şərq hissəsinə köçürülmüşdü. Tədqiqatçıların fikrincə onlar Assuriya çarı Sarqon tərəfindən vaxtilə İsraildən İranın cənub-qərbinə köçürülmüş yəhudilərdir. Sonradan müxtəlif səbəblərdən bir çox yerə, o cümlədən, Dərbəndə köçürülmüşdür. Avropa yəhudilərinin Dərbəndə gəlişi XIX əsrə təsadüf edir [3, 266].

Ermənilərin Dərbənd ərazisində məskunlaşması isə XVIII əsrə təsadüf edir. Bu vaxta qədər ermənilər Dərbənddə yaşamamışdır. Onların Dərbəndə və digər Azərbaycan bölgələrinə ayaq açması I Pyotrun siyasəti ilə başlamışdır. Pyotrun hakimiyyətinin sonuna yaxın ermənilər Dərbənddə bütöv bir küçəni zəbt etmişdilər [5, 305]. 1796-cı ildə rus qoşunları Azərbaycanı tərk edəndə Dərbənddə ayrıca küçə yaradan erməni ailələri şəhəri tərk edir və yalnız 1806-cı ildə şəhərin ruslar tərəfindən işğalından sonra yenidən şəhərə qayıtmışlar.

Rusiyanın işğalından sonra Dərbənddə aparılan siyasətin nəticəsində əhalisinin etnik tərkibində dəyişikliklər baş verməyə başlayır, qeyri-müsəlmanların, xüsusən də ermənilər və rusların sayı artmağa başlayır. Rus işğalı dövründə xristian dininə aid xalqların, xüsusən də, ermənilərin artımı qeydə alınmışdır. Əgər 1810-cu ildə onların sayı 56 nəfər idisə 1891-ci ildə 875 nəfərə çatmışdır. Çarizmin yeritdiyi siyasətin nəticəsində bu vaxta qədər Dərbənddə təsadüf olunmayan xalqlar (almanlar, polyaklar, ruslar, ukraynalılar, gürcülər və s.) məskunlaşmağa başlamışlar [2, 278]. (Bax. Cədvəl 1)

Rusların burada məskunlaşmasının özünəməxsus tarixi var, belə ki, ruslar hələ Kiyev dövlətinin vaxtında ticarətlə əlaqədar olaraq, Dərbəndə tez-tez gəlirdilər. Pyotrun burada rus qarnizonu yerləşdirməsindən sonra daimi rus məskənləri formalaşmağa başlayır. XIX əsin sonuna kimi bura ancaq şəhər əhalisi köçürülürdü, lakin 15 aprel 1899-cu il fərmanından sonra kənd əhalisi də köçürülməyə başlayır. Torpaq çatışmazlığına görə, ruslar əsasən Dağıstanın şəhərlərinə, o cümlədən, Dərbəndə axın edirdilər. Şəhərdə mütəmadi olaraq, təqaüdçü və aşağı rütbəli hərbçilər yerləşdirilirdi, nəticədə, XIX əsrin ortalarında Dərbənddə rus əhalisinin əsas hissəsini təqaüdçü hərbçilər təşkil edirdi [5, 258]. 1852-ci il Qafqaz təqviminə görə, şəhər əhalisi arasında (12132), rus hərbçiləri nəzərə alınmazsa 3 nəfər tacir, 12 nəfər sənətkar, 33 adi şəhər sakini, 6 nəfər ruhani qeydə alınmışdır [5, 321-322]. XIX əsrin II yarısında Rusiyadan gələnlərin hesabına Dağıstan şəhərlərinin və şəhər əhalisinin sayı xeyli artmışdı, lakin Dərbənd rusların kütləvi axın etdiyi şəhər olmadı. Əsas səbəb sıxlıq və ev tikmək üçün yer çatışmamazlığı idi [6, 258].

Dərbəndin əhalisinin sayı haqqında Rusiya işğalına qədər əlimizdə dəqiq məlumat yoxdur. Bu dövrə aid sənədlərin heç biri zəmanəmizə qədər gəlib çatmamışdır. Yalnız şəhərdə olmuş səyyahların qeydlərindən müəyyən məlumatlar əldə etmək mümkündür. Lakin bu məlumatların hamısı təxmini hesablamalardır. Bunu da qeyd etmək lazımdır ki, verilən məlumatlar dəqiq olmasalar da bir-birinə bənzərdir. E.İ.Kozubskinin verdiyi məlumata görə Dərbənd xanlığı 4 minə yaxın qoşun çıxara bilirdi. P.Q.Butkov da Dərbənd əyalətinin 4 minə qədər qoşun çıxara bilməsi fikrini təsdiqləyir. Çarizmin yeritdiyi müstəmləkə siyasət şəhər





əhalisinin etnik tərkibində dəyişiklik yaratsa da Azərbaycan türkləri əhalinin əksəriyyətini təşkil edirdi.

1810-cu ilin məlumatına görə Dərbənddə 28 erməni (56 nəfər), 59 yəhudi (166 nəfər) və 1435 türk ailəsi-azərbaycanlılar (3953 nəfər) qeydə alınmışdır. Ailələrin ümumi sayı 1522, əhalinin sayı isə 4175 nəfər olmuşdur [2, 277]. Kozubskinin 1810-cu ilə aid verdiyi statistikaya görə şəhərdə 1947 müsəlman (şəhərdə yaşayan bütün müsəlmanlar nəzərdə tutulur), 56 erməni və 166 yəhudi yaşayırdı. 1820-ci ilin oktyabrında Dərbəndə səfər etmiş Fransanın Tiflisdəki səfiri kavaler Qambanın qeydlərində göstərilir ki, şəhərin ümumi əhalisi 7-8 min nəfər idi və onun 2/3 hissəsi iranlılardan (iranlılar deyildikdə azərbaycanlılar nəzərdə tutulmuşdu.) ibarət olmuşdur. Qarnizon və inzibati işçilərdən əlavə 600-700 erməni və 200-300 yəhudi yaşayırdı [6, 162]. 1824-cü il komendant hesablamasına görə şəhər əhalisini 5407 müsəlman kişi və 4970 qadın, 136 erməni kişi və 103 qadın, 230 yəhudi kişi və 214 qadın təşkil etmişdir [6, 241].

1832-ci ilə aid kameral təsvirlərdə Dərbənd, forştat və Sabnova kəndi ilə birlikdə 1795 ailə qeydə alınmışdır: 4741 tatar (Cənubi Qafqazda Azərbaycan türkləri belə adlanırdı), 256 yəhudi və 142 erməni [6, 241]. 1859-ci ilin kameral təsvirində isə 6686 kişi və 6784 qadın olmaqla ümumi 13470 əhali hesaba alınmışdır [2, 241].

XIX əsrin II yarısı üçün bu rəqəmlər, demək olar ki, dəyişməz qalır. 1886-cı il ailə sayına görə tərtib olunan siyahıda 2617 ailədən 1967-si Azərbaycan tatarları idi. İkinci yeri isə yəhudilər xüsusən, dağ yəhudiləri (tatlar) tuturdular [8, 24-25]. 1897-ci ilin siyahıya almasına görə Dərbənddə 66,7% təşkil edən azərbaycanlı əhalinin XX əsrdə faiz etibarı ilə sayının kəskin azalması prosesi baş vermişdir. Xüsusən XX əsrin ortalarına azərbaycanlılar Dərbənddə say etibarı ilə nəinki dominantlığı itirmiş, hətta sayca ruslardan, yəhudilərdən də geri düşmüşdür. Çar hökumətinin köçürmə siyasəti nəticəsində Dərbənddə əhəmiyyətli sayda ruslar, maloruslar (ukraynalılar), belaruslar, litvalılar, polyaklar, ermənilər məskunlaşdırıldılar [9].

XX əsrin əvvəllərində Dərbənd şəhərinin əhalisinin sayı sənayenin və nəqliyyatın inkişafı ilə əlaqədar olaraq artmışdı, belə ki, Vladiqafqaz-Bakı dəmir yolunun çəkilişi Dərbənd şəhərinin əhalisinin etnik tərkibinə də öz təsirini göstərmişdir. Dəmiryolu 1898-ci ildə Dərbənddə işə salındı və ixtisaslı kadr çatışmazlığından şəhərə Rusiya imperiyasının velikoros quberniyalarından dəmir yolu işçiləri köçürülmüşdür [9].

1900-1903-cü illər iqtisadi böhran əhalinin artımına mənfi təsir göstərmiş, işsizliklə əlaqədar olaraq ölkəni tərk edənlərin sayı artmışdı. 1897-1913-cü illərdə Dağıstanın şəhər əhalisi 2 dəfədən çox artaraq 78,4 min nəfərə çatmışdı.

O cümlədən, Dərbənd şəhərinin əhalisi 1897-ci illə müqayisədə 2 dəfədən artıq artmışdır. Belə ki, 1897-ci ilin əhalinin siyahıya alınmasına görə Dərbənddə 14649 nəfər olduğu halda 1913-cü ildə bu rəqəm 33,6 minə çatmışdır. I Dünya müharibəsi və II Dünya müharibəsi illərində aclıqdan əziyyət çəkən əhalinin bir qismi imperiyanın digər şəhərlərinə köç etmişdilər və bu da əhalinin sayının azalmasına gətirmişdir [4, 179 ].

1913-cü ildən 1916-cı ilə kimi Birinci Dünya müharibəsi ilə əlaqədar əhalinin sayının azalması müşahidə olunur, belə ki, şəhər əhalisinin 8%-ni təşkil edən rus və ukraynalı fəhlələr orduya səfərbər olmuşdular. Vətəndaş müharibəsi də birbaşa və ya dolayı yolla Dərbənddə əhalinin azalmasına təsir göstərmişdir. Bütün bunlardan əlavə, 1920-1921-ci illərdə hökm sürən dəhşətli quraqlıq, tif və malyariya epidemiyaları 10 minlərlə insanın həyatına son qoymuşdu [4, 179].

XX əsrin əvvəllərində əhalinin etnik tərkibi haqqında demək olar ki, dəqiq məlumat yoxdur. Yalnız Sovet hakimiyyəti qurulduqdan sonra 1926-cı ildə keçirilmiş Ümümittifaq siyahıyaalma materiallarından müəyyən məlumatlar almaq mümkündür. Cədvəl 1. Həmin siyahıda azərbaycanlıların sayının azaldığı, əvəzində isə qeyri-müsəlmanların xüsusən erməni, rus və yəhudilərin sayının artdığı təəssüf doğurur. Rusiyanın yeritdiyi müstəmləkə siyasəti əsrlərlə türk yurdu olan Dərbənddə Azərbaycan türklərinin sayının kəskin azalması ilə nəticələndi.

**Cədvəl 1.**

**Çar Rusiyası dövründə Dərbənd əhalisinin etnik tərkibi [3 və 4]**

| | **1824-ci il** | **1843-ci il** | **1886-ci il** | **1897-ci il** | **1926-ci il** |
|---|---|---|---|---|---|
| **ümumi say** | 11060 | 11278 | 15265 | 14649 | 23097 |
| **azərbaycanlı** | 10377 | 9572 | 8994 | 9767 | 7831 |
| **alman** | - | 3 | 13 | 26 | 48 |
| **avar** | - | - | - | - | 51 |
| **dargin** | - | - | - | - | 16 |
| **erməni** | 239 | 284 | 875 | 621 | 812 |
| **fars** | - | - | - | 14 | 432 |
| **fin** | - | - | - | 8 | - |
| **gürcü** | - | - | 56 | 5 | 80 |
| **kartvel** | - | - | - | 6 | - |
| **kumık** | - | - | - | - | 53 |
| **lak** | - | - | - | - | 34 |
| **latış** | - | - | - | 140 | - |
| **ləzgi** | - | - | - | 603 | 868 |
| **polyak** | - | - | 29 | 159 | - |
| **rus** | - | - | 1561 | 1092 | 5499 |
| **tat** | - | - | - | 8 | - |
| **tatar** | - | - | - | - | 74 |
| **türk** | - | - | - | 19 | - |
| **ukraynalı** | - | - | - | - | 83 |
| **yəhudi** | 444 | 871 | 2568 | 2181 | 6745 |
| **yunan** | - | 2 | - | - | - |





**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**

1. Azərbaycan tarixi. ( Uzaq keçmişdə 1870-ci illərə qədər). Bakı., 1996.
2. Ağasiyev İ. Azərbaycanın Dərbənd şəhərinin Çar Rusiyası tərəfindən işğalı və əhalinin etnik tərkibində dəyişikliklər. AMEA Tarix institutu Elmi əsərlər 40-cı cild. Bakı., 2012.
3. Hacıyev A. XIX-XX əsrin əvvəllərində Azərbaycanın Dərbənd şəhərinin etnik tərkibi. AMEA Tarix institutu Elmi əsərlər 40-cı cild. Bakı., 2012.
4. Ибрагимов М.-Р.А. О роли этнодемографических факторов в истории города Дербента (конец XIX–начало XXI вв.). Дербент в историческом процессе Кавказа и России. Махачкала.,2015
5. Кавказский календарь на 1857 год. Т., 1851
6. Козубский Е.И. История города Дербента. Темур-Хан-Шура., 1906.
7. Лысцов В.П. Персидский поход Петра I. М., 1951.
8. Свод статистических данных извлеченных из посемейных списков населения Закавказья. – Тифлис, 1890.
9. https://bit.ly/2t0dt2X

**ETHNIC COMPOSITION OF THE CITY OF DERBENT DURING THE PERIOD OF TSAR RUSSIA**
**SUMMARY**

This article discusses the ethnic composition of the city of Derbent in the period after its conquest by Tsarist Russia and prior to occupation by Soviet troops. Information about this is mainly based on the materials of the censuses as the Russian Imperial Census of 1897 and the First All-Union Census of the Soviet Union 1926. Based on these materials, it can be argued that the number and ethnic composition of the population of the city have changed, as well as the number of Azerbaijanis gradually decreased.

## ЭТНИЧЕСКИЙ СОСТАВ ГОРОДА ДЕРБЕНТ В ПЕРИОД ЦАРСКОЙ РОССИИ


### РЕЗЮМЕ

В данной статье рассматриваются вопросы этнического состава города Дербент в период после завоевания его царской Россией до оккупации советскими войсками. Сведения об этом основываются, главным образом, на материалах кАмеральных переписей, Всероссийской переписи 1897 года и Всесоюзной переписи 1926 года. Опираясь на данные материалы, можно утверждать, что численность и этнический состав населения города изменилась, а также число азербайджанцев постепенно уменьшалась.